



2020-ci il başlayandan bəşəriyyət pandemiya ilə sözün əsl mənasında savaşa atılıb. Təəssüf ki, hələlik bu savaşda koronavirus adlı qorxunc bəla qalib gəlir. Lakin xəstəliyə qarşı mübarizədə qabaqlayıcı tədbirlər görən ölkələrdə son dövrlər müsbət dinamikanın müşahidə olunması bir qədər nikbinlik yaradır. Sevindiricidir ki, bu ölkələr sırasında Azərbaycan da var.

# Gerçək qayğının təcəssümü

## İlham Əliyev və Mehriban Əliyeva böhran şəraitində də qaçqın və məcburi köçkünlərin birmənalı himayədarları olduqlarını təsdiqlədilər







### Pandemiyaya qarşı mübarizədə Azərbaycan nümunəsi

Pandemiyanın yayılmağa başladığı ilk gündən digər ölkələr kimi, respublikamızda da bütün istiqamətlər üzrə qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı. Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından koronavirusun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə zəruri qabaqlayıcı tədbirlərə start verildi. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Problemin ciddiliyi nəzərə alınaraq öncə dövlət sərhədləri, bütün təhsil müəssisələri bağlandı, virusun geniş yayılmaması üçün çevik və sistemli preventiv tədbirlər həyata keçirildi. Martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

Vətəndaşların sağlamlığının qorunması istiqamətində digər mühüm addımlar da atıldı. Qısa müddətdə ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alındı, virusa yoluxan insanların müalicəsi üçün xəstəxanalar, modul tipli səhiyyə ocaqları, tibbi ləvazimatlar, maska istehsal edən müəssisələr yaradıldı.

Lakin mayın əvvəlindən həyata keçirilən yumşalma tədbirlərini bəzi vətəndaşlar infeksiyanın tamamilə yox olması kimi anlayaraq, qoyulan qaydalara riayət etmədi. Sosial məsafə tələblərinə əməl olunmadı, maska taxılmadı və nəticədə iyun ayının ortalarından koronavirus ölkə ərazisində sürətlə yayılmağa başladı, gündəlik təsdiq edilmiş yoluxma hallarının sayı 500-ü ötdü, virus qurbanlarının sayı çoxaldı. Ölkədəki epidemioloji vəziyyət qənaətbəxş olmadığı üçün də xüsusi karantin rejimi yenidən sərtləşdirildi.

Vəziyyətin getdikcə gərginləşdiyini görən Prezident İlham Əliyev xalqa müraciət edərək vətəndaşları bu məsələdə həmrəyliyə, birlik nümayiş etdirməyə, qaydalara əməl edilməsinə çağırdı.

Birinci vitse-prezident Mehriban Əliyeva da bu müddətdə üç dəfə ölkə vətəndaşlarına müraciət ünvanladı. UNESKO və ICESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri müraciətlərində bütün həmvətənlərimizi məsuliyyətli olmağa, tövsiyə və tələblərə ciddi riayət etməyə səslədi. Eyni zamanda bildirdi ki, bu məsələdə laqeydlik ağır fəsadlar verə bilər. Birinci vitse-prezident əminliklə bildirdi ki, hər zaman ümummilli məsələlərdə birlik nümayiş etdirən xalqımız "Evdə qal, sağlam qal!" kampaniyası çərçivəsində də həmrəy olacaq. Bununla da Azərbaycan virusa qalib gələcək: "Mən sizə bir övlad, bir həyat yoldaşı, bir ana və nənə olaraq müraciət edirəm! Qəlbimin dərinliklərindən gələn və hər birinizə ünvanlanan bu sözlərimi eşidib məni anlayacağınıza ümid edirəm! Xahiş edirəm, bunu mütləq zərurət və vəzifəniz kimi qəbul edin. Növbəti 20 gün ərzində hamı evdə olmalıdır. Ailələrinizlə birlikdə. Xahiş edirəm, vacib zərurət olmadan evlərinizi tərk etməyin!"

Həm İlham Əliyev, həm də Mehriban Əliyevanın xalqa müraciətlərindən sonra ölkə ictimaiyyəti həqiqətən də həmrəylik nümayiş etdirərək virusa qarşı mübarizədə qarşıya qoyulan tələblərə riayət etməyə başladı. Bu isə yoluxma və ölüm faktlarının azalması, sağalanların sayının çoxalması ilə nəticələndi. Son günlər əldə edilən müsbət dinamika da bunun real göstəricisidir.

Bir sözlə, vaxtında görülmüş və düşünülmüş tədbirlər sayəsində ölkəmiz özünü həqiqətən də faciəli ssenaridən qurtara bildi.

### Heydər Əliyev Fondundan 200 min ailəyə dəstək

Ölkədə elan edilən karantin rejimi təbii ki, bir çox sahələrdə iş yerlərinin müvəqqəti dayandırılmasını şərtləndirirdi. Ancaq bu vəziyyəti nəzərə alan Prezident İlham Əliyev əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində mühüm qərarlar qəbul etdi.

Dövlət başçısı iş yerini itirən vətəndaşların, xüsusən də sahibkarlıq subyektlərinin, həmçinin həssas təbəqənin sosial durumunun yaxşılaşdırılmasını nəzərdə tutan böyük iqtisadi-sosial paketini təqdim etdi. Ümumilikdə bu müddətdə məşğulluq və sosial rifaha dəstək tədbirləri 5 milyon nəfəri əhatə etdi.

Bu gün də sosial yardımlar davam etdirilməkdədir. Əlbəttə ki, bu barədə danışarkən Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etməmək mümkün deyil. İnsanlara təmənnasız yaxşılığı, qayğı göstərməyi, mərhəməti, ehtiyacı olanlara əl tutmağı, xeyriyyəçiliyi öz fəaliyyətinin prioritetləri hesab



edən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva bu müddətdə öz amalına sadiqliyini bir daha təsdiqlədi. Mehriban Əliyevanın göstərişi ilə fond "Biz birlikdə güclüyük" şüarı ilə xeyriyyə aksiyası keçirdi. Bu aksiyalar çərçivəsində 200 mindən çox ailəyə ərzaq məhsullarından ibarət sovqatlar paylanıldı.

Bu, bir daha Heydər Əliyev Fondunun ölkədə sosial-iqtisadi inkişafa yönələn dövlət proqramlarına dəstək verdiyini, aztəminatlı ailələri, xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxladığını təsdiqləyən reallıqdır.

Ümumiyyətlə isə, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkəmizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində layiqli yerini tutmasına doğru istiqamətlənmiş tədbirlərin inamla davam etdirir. Ən mühümü odur ki, fondun fəaliyyəti, həyata keçirdiyi hər bir tədbir, proqram və layihələr nəticə etibarilə Prezident İlham Əliyevin yürütdüyü siyasi kursa layiqli töhfələr verir.

### Böhran şəraitində 7 mindən çox məcburi köçkün ailəsinə yeni mənzillər veriləcək

Bu bir həqiqətdir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın qaçqın və məcburi köçkünlərə göstərdiyi hərtərəfli diqqət davamlı və çoxşaxəli səciyyə daşıyır. Birinci xanımın fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin effektiv həlli hər zaman əsas istiqamətlərdən birini təşkil edib.

Son illərdə həm dövlət başçısı, həm də birinci xanımın təşəbbüsləri, göstərişləri ilə qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihələr nəticəsində 300 mindən çox insanın mənzil-məişət şəraitinin yaxşılaşdırılması, bu kateqoriyadan olan vətəndaşlar üçün 111 qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış massivlərinin tikilməsi bunun bariz təcəssümüdür.

2020-ci ildə bu sahədə rekord göstərici gözlənilir. Belə ki, qlobal böhranın iqtisadiyyata mənfi təsirlərinə baxmayaraq, bu il 7 mindən çox məcburi köçkün ailəsi üçün yeni mənzillər tikilib təhvil veriləcək. Son iki ildə isə məcburi köçkünlər üçün 13 yeni qəsəbə salınıb, bu kateqoriyadan olan vətəndaşlara verilən vahid aylıq müavinətin məbləği ötən il 50 faiz artırılıb. Bakıda, Sumqayıtda və regionlarda yeni yaşayış komplekslərinin inşası isə davam etdirilir.

### Birinci xanımın 4 ildə Ağdama 3 səfəri rayon sakinlərinə stimul verib

Ağdamdan olan məcburi köçkünlər də Birinci vitse-prezidentin qayığısını daim öz üzərlərində hiss ediblər. Mehriban Əliyevanın Ağdama, cəbhəyanı ərazilərə səfərləri hər zaman məcburi köçkünlərin böyük qayıdışa inamını daha da gücləndirib. Rayonun işğal altında olmayan 44 yaşayış məntəqəsində müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri aparılıb.

Son 4 ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Ağdama 3 dəfə səfər etmələri rayon sakinlərinə əlavə stimul verib və xatirələrində silinməz izlər qoyub. Göstərilən bu qayğıya görə ağdamlılar dövlət başçısı və Birinci vitse-prezidentə dərin minnətdarlıqlarını bildirir, birmənalı şəkildə onların ətrafında sıx birləşdiklərini bəyan edirlər.

*Bir sözlə, bu gün qlobal böhran şəraitində olmağımıza baxmayaraq, ağdamlı məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər bir daha əminlik yaradır ki, Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva hər zaman onların birmənalı himayədarlarıdırlar.*

***Vasif HƏSƏNOV,***
***YAP Ağdam Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini***